Makroiqtisadi siyasətin koordinasiyası isə Maliyyə stabilliyini gücləndirəcək və müvafiq monetar siyasəti həyata keçirəcəkdir. Bu siyasətin məğzi inflyasyanın aradan qaldırılmağı, maliyyə sektorunda stabilliyin yaranmağı və potensial iqtisadi riskləri aradan qaldırmağı təşkil edir. Xüsusilə dövlət inflyasyanın aradan qaldırmaq məqsədilə iqtisadiyyatda pula olan tələbi effektiv şəkildə təmin etməyə çalışacaqdır. Yeni fiskal sistemin yaradılması xüsusilə büdcə resusrların istifadəsi fondların düzgün paylanması və məsrəflərin azaldılmasına xüsusi diqqət yetiriləcəkdir və eyni zamanda müxtəlif büdcə risklərinin dərhal dəyərləndirilməsi və aradan qaldırılması üçün müvafiq tədbirlər görüləcəkdir.

İqtisadi sistemin rəqabət gücünü artırmaq üçün passiv vergi siyasəti yavaş yavaş aktiv vergi siyasəti ilə əvəzlənəcəkdir. Yeni vergi sisteminin tətbiqi biznes fəaliyyəti üçün əlverişli zəmin yaradacaqdır.

Neft və qaz resurslarından istifadə mexanizmidə inkişaf edəcəkdir. Neft və qaz resurslarının satışından əldə olunan gəlirlər yavaş yavaş həmin fondların ayrıldığı investisiyalarla əvəzlənəcəkdir, digər bir sözlə neft və qaz resurslarından gələn gəlirin iqtisadiyyatn inkişafı üçün xərclənməsi iqtisadiyyatın hidrokarbon resurslarından gələr gəlirin asılılığına son qoyacaqdır. İnvestorların hüquqlarının qorunması, gömrük prosedurlarıının inkişafı, Dünya ticarət birliyinə qoşulmaq, xarici ticarət prosedurlarının inkişafı biznes cəmiyyətinə dövlət dəstəyi ilə vergi və maliyyə sisteminin yenidən qurulması monopolyaların azalmasına, xarici investorların cəlb edilməsinə və azad bazar iqtisadiyyarının təminatına zəmin yaradacaq.

2020 gələcəyə baxış proqramıınn ən əsas konseptlərindən biridə neft və qaz resurslarının çıxarılması daşınması və istehsal olunması üşün lazımi infrastrukturların tikilməsi vəya yenidən bərpasıdır. Neft və qaz sahəsində Yeni infrastrukturların tikilməsi yeni investisiyalar cəlb edəcək ekoloji qaydalara əməl

ediləcək, neft və qazdan məhsul istehsal ediləcək və nəticədə həmin məhsullarda ixrac ediləcək. Bu proqramın ən əsas digər konsepti altevnativ enerji resurslarından istifadənin artırılmasıdır. Əsas məqsəd isə alternativ enerji resurslarından istifadə edərək tükənməyən enerji mənbəyi əldə etmək və ekologiyaya zərər yetirməməkdir. Bu proqrama aliminium sənayesidə daxildir. Proqrama əsasən aliminium sənayesini inkişaf etdirmək üçün ilkin aliminium istehsalını artıracaq və müvafiq texnologiyalar vasstəsilə aliminium istehsalı zamanı ətraf mühitə dəyəcək zərərin qarşısı alınacaqdır. Eyni zamanda bu proqrama elmi fəaliyyətlərin dəstəklənməsi innovasiya və araşdırma üçün investisyanın artırılması və əqli mülkiyyətə əsaslanan iqtisadiyyatın inkişafıda daxildir. Turizm infrastrukturunun inkişaf etdirilməsi turistik servislərin əhatə dairəsinin genişlənməsi, beynəlxalq standartlara cavab verən turizm sektorunun yaradılmasıda proqrama daxil edilən əsas sahələrdəndir. Bu proqramda Kənd təsərrüfatına xüsusi diqqət ayrılmışdır. Mövcud Kənd təsərrüfatı infrastrukturunun inkişafı üçün mürəkkəb tədbirlər görüləcəkdir, burada məqsəd  qeyri neft sənayesinin inkişafına diqqət ayırmaqdır. Buna görə də kənd təsərrüfatı sahəsinə dövlət dəstəyi artacaqdır.

Uzunmüddətli davamlı və dayanıqlı iqtisadiyyatı inkişaf etdirmək üçün innovasiya fəaliyyətinin genişlənməyi, elmi texnologiyaların yaranmağı və biliyə əsaslanan iqtisadiyyatın formalaşmağı əsas meyarlar olacaqdır. Tarixə əsaslanan elmin inkişafı ölkədə prioritet hədəflərdən biri olacaqdır. Elmi infrastrukturda inkişaf etdiriləcək informasiyaya əsaslanan sistemlərin dijitallaşmasıda təmin ediləcəkdir. Elmin maliyyə dəstəyi həm dövlət büdcəsindən həmdə başqa mənbələr vasitəsilə təmin ediləcəkdir. Ölkədə innovativ iqtisadiyyatı yaratmaq üçün elmlə iqtisadiyyat arasındakı əlaqə gücləndiriləcək və bazar tələblərinə uyğun elmi tədqiqatlar aparılacaqdır. İnformasiya texnologiyalarının inkişafı üçün dövlət fondunun yaradılmasıda əsas prioritet hədəflərdəndir.Belə bir fondun yaradılasında məqsəd isə biliyə və innovasiyaya əsaslanan sahibkarlığın inkişafına şərait yaratmaqdır.

Insan kapitalının inkişafı  konseptinə cəmiyyətin müxtəlif təbəqələrinə yüksək keyfiyyətli sağlamlıq və təhsil xidmələrinin verilməsi daxildir. Aşağı gəlirli

ailələrnin və kasıb vətəndaşların xüsusilə bu xidmətlərdən yararlanmağı insan kapitalının inkişafı üçün vacibdir. Insan kapitalının inkişaf etdirmək üçün əsas vəzifələrdən biri səhiyyə sisteminin inkişafı və bu sahəyə olan ayrılmış vəsaitin artırılmağı böyük əhəmiyyət kəsb edir. Bundan əlavə ayrılmış vəsaitlərin effektiv və məqsədə uyğun istifadəsinin təmin etmək üçün müvafiq və rəsmi mexanizmlərin yaradılmasıda vacibdir.

Səhiyyə xidmətinin logistik potensialını inkişaf etdirmək üçün sağlamlıq mərkəzlərinin yenidən bərpası və onların müasir tibbi avadanlıqlarla təmin edilməsi nəzərdə tutulmuş sağlamlıq reformasiyasının əsas hissəsini təşkil edir. Sağlamlıq xidmətindəki ən əsas dəyişikliklərdən biridə tibbi sığorta ilə bağlıdır.

İcbari tibbi sığortanın yaranması ölkədə əhalinin sağlamlıq səviyyəsinin qalxmasına, tibbi yardımın keyfiyyətinin artmasına, xəstələrin hüquqların qorunmasına, nəzarət mexanizmasının inkişafına şərait yaradacaqdır. Əhalinin sağlamlığının inkişafında dövlətin rolu mühüm olacaqdır. Dövlət xəstəliklərin qarşısını almaq üçün (ankoloji, qids, diabetlər və.s), müxtəlif dövlət proqramlarıının vasitəçiliyi ilə narkotik alüdəçiliyinə, alkoqolizmə və siqarət çəkməyə qarşı mübarizə aparacaqdır.

2015-2020-ci illər arasında Azərbaycan dövlət proqramı çərçivəsində yoluxucu xəstəliklərin qarşısını almaq əsas prioritet hədəflərdən biri olacaqdır. Bundan əlavə 2012-2020-ci illər arasında körpələrin sağlamlığını artırmaq üçün dövlət proqramlarına kütləvi tibbi yoxlanışlar daxil ediləcəkdir. Bundan əlavə 2012-2020 ci illər çərçivəsində təhsilə ayrılmış vəsaitin ÜDM-yə olan nisbətidə ildən ilə artacaqdır və göstəriciləri İEÖ-dəki səviyyəyə qalxacaqdır. Ölkədəki təhsil keyfiyyətini qaldırmaq məqsədilə təhsil sahəsində ciddi reformlar keçirələcəkdir, bütün təhsil qurumlarına müasir təhsil sistemini həyata keçirməyə şərait yaradacaqdır.

Digər məqsədlərdən biridə ölkədəki uşaqların məktəbdən əvvəlki iştirak səviyyəsinin qalxması və Avropa ölkələrdəki səviyyəyə çatmasıdır. Buna görədə dövlət tərəfindən uşaq bağçalarına məktəbə qədər təhsil qurumlarına olan dəstəyini və nəzarətini artıracaqdır, burada məqsəd isə ondan ibarətdir ki, verilmiş təhsilin

keyfiyyətinin müafiq standartlara uyğunluğunu təmin etməkdir. Şagirdlərin məktəbdə iştirak səviyyəsini qaldırmaq üçün yeni məktəblərin tikilməsi, köhnə məktəblərin bərpası və təhsil ocaqlarının arasındakı əlaqənin sıxlaşması nəzərdə tutulmuşdur. Bundan əlavə təhsil sistemində "yaddaş məktəbi" bu, şagirdlərin əqli fəaliyyətini və ümumi inkişafını yavaşladır, yeni "ideyaların və fikirlərin məktəbi" adlı yeni təhsil sistemi ilə əvəz olunacaqdır. Orta məktəb sistemi şagirdlərin ixtisaslaşmasına və yeni proqramlar vasitəçiliyi ilə bacarıqlı şagirdlərin üzə çıxmasına şərait yaradacaqdır. Ali təhsilin inkişafı üçün isə yeni universitetlərin tikilməsi və yeni kompusların salınması nəzərdə tutulubdur. Əlavə olaraq yeni standartların qəbul edilməsi nəticəsində ali təhsil ocaqlarında tələbələrin xüsusi bilik və bacarıqları, onların ölkənin sosial iqtisadi vəziyyəti ilə bağlı məlumatları artacaqdır.

İnfomasiya sisteminin komputerləşdirilməsi müasir təhsil sisteminin yüksək səviyyədə həyata keçirilməsi üçün əsas təsir edici qüvvələrdən biridir. 2013-2020 ci illər arasında dövlət proqramı çərçivəsində Azərbaycan respublikası daxilində təhsil instutlarının xüsusilə ucqar nöqtələrdə yerləşən məktəblərin təhsil sisteminin komputerləşdirilməsi nəzərdə tutulmuşdur. Bu məqsədlə bütün təhsil instutlarının internetlə təmin edilməsi yeni texniki avadanlıqlarla təchiz edilməsi və Azərbaycanın "yeganə təhsil şəbəkəsinə" qoşulmaşı nəzərdə tutulmuşdur. Məktəblərdə hər bir sinfin komputer, proyektor, elektronik lövhə ilə təchiz edilməsi və şagirdlərin isə tabletlərlə təmin edilməsi Azərbaycanın insan kapitalının inkişafı üçün nəzərə aldığı əsas hədəflərdəndir. "Elektronik məktəblər"in sayı nəzərdə tutulmuş tarix intervalı çərçivəsində 1000-ə çatdırılması digər əsas hədəflərdəndir, eyni zamanda "Distant Təhsil Mərkəzi" nin yaradılmasıda bölgələrdəki təhsil səviyyəsinin inkişafına təsir edəcək əsas amillərdəndir. Bundan əlavə onlayn TV kanalı, "təhsil TV" nin yaradılmasıda nəzərə alınan əsas hədəflərdəndir. Həmçinin məktəblərdə dərs keçən müəllimlərin də peşəkarlığının artırılması, ölkədə insan kapiatalının inkişafına təsir edəcək faktorlardan biridir, bu məqsədlə müəllimlərə beynəlxalq standartdalara uyğun, modul-kredit sistemini öyrədən və müasir tələblərə uyğun hazırlıq proqramlarının

keçirilməsi nəzərdə tutulur. Eyni zamanda müəllimlər motivasiya etmək və onların perfonmaslarını artırmaq üçün differensial maaş (performansa uyğun maaş) və mükafatlandırma sisteminin yaradılması da prioritet hədəflərdəndir.

Azərbaycan təhsil sisteminin dünya və Avropa təhsilinə inteqrasiyası 2013-2020 ci illərdə artacaqdır. Azərbaycanda təhsil standartlarının unifikasiyası (bütün təhsil sisteminin eyni standartlara tabe edilməsi) və bolonya təhsil sisteminin dahada inkişaf etdirilməsi, Azərbaycan təhsil instutlarının beynəlxalq əlaqələrinin inkişaf etməsinə və beynəlxalq təhsil proqramlarının ölkə daxilində müvəfəqiyyətlə həyata keçməsinə şərait yaradacaqdır. Eyni zamanda qabaqcıl xarici universitetlərdə təhsil alan gənclərin sayının artması üçün dövlət tərəfindən müxtəlif xaricdə təhsil proqramlarının həyata keçməsi nəzərdə tutulur.

### 1.3. Məhsuldar qüvvələrin paylanmasının müntəzəmliyi, prinsipləri və amilləri

Iqtisadi planlaşdırmada məhsuldar qüvvələr və əhali paylanması strategiyasının əsas şərti istehsalatın əsas vasitələrinin ictimai mülkiyyətə çevrilməsidir. Bundan əlavə sosializmin iqtisadi qanunları və onların tətbiqi haqqında bilik iqtisadi inkişaf prosesinin əsas elementlərindən biridir. Bu prinsiplər Sovet Azərbaycanı dövründə iqtisadi planlaşdırmanın əsas məğzini təşkil edirdi. İqtisadi qanunlar haqqında və onların kreativ tətbiqi haqqındakı biliklər, milli iqtisadiyyatın surətli və balanslı inkişafını təmin etməklə yanaşı ölkənin təbii resurslarının effektiv şəkildə istifadə edilməsinə də şərait yaratmışdır. Milli iqtisadi planlaşdırma dövlətin iqtisadiyyat üzərində nəzarət etməsinə şərait yaradır və bu planlaşdırma istehsalat prosesinin bütün sahələrini və qollarını əhatə edir. Məhsuldar qüvvələrin maksimum şəkildə istifadə edilməsi iqtisadi inkişafın və sosial tələblərin təmin edilməsinə şərait yaradır. Sovet Azərbaycanı hakimiyyətinin planlı iqtisdadiyyatındakı əsas xüsusiyyət sosializmin iqtisadi qanunlarına əsaslanaraq idarə edilməsi olmuşdur.

Bu qanunun əsas xüsusiyyəti iqtisadiyyatın sosialist prinsplərə əsasən davam etdirilməsi və istehsalatın inkişaf etmiş texnologiyaların tətbiqi vasitəsi ilə

artırılmasıdır. Burada məqsəd isə cəmiyyətin daim artan tələblərinin maksimum şəkildə ödənməsidir. Eyni zamanda sosialist planlaşdırmasının digər bir məqsədi isə milli iqtisadiyyatın balanslı şəkildə inkişaf etdirilməsidir. Buna görədə iqtisadiyyat mərkəzləşdirilmiş planlaşdırma vasitəsi ilə bütün ölkə daxilində idarə edilirdi.

İqtisadiyyatın balanslı inkişafı ölkə daxilində milli iqtisadiyyatın və əhalinin tələblərini və ehtiyaclarını ödəyəcək məhsullar və xidmətlərin yaradılmasıdır. İstehsalatın vasitələrinin cəmiyyət tərəfindən ictimai mülkiyyəti Sovet hakimiyyəti iqtisadiyyatının əsas iqtisadi siyasəti olmuşdur. Planlaşdırılmış İqtisadiyyatın əsas xüsusiyyətləri əmək məhsuldarlığının stabil inkişafı, göstərilmiş əməyə uyğun paylanma qanunu və sosialist akkumlyasiya qanunudur. Sosializmin iqtisadi qanunları ehtiyaca uyğun məhsul və xidmətlərin minumum xərclə və maksimum keyfiyyətlə əldə edilməsinə şəarit yaradır. Sovet Azərbaycanı hakimiyyəti dövründəki planlı iqtisadiyyatın əsas xüsusiyyətləti:

a)Planlı iqtisadiyyatdaki kommunist partiyasının rolu. Azərbaycan SSRİ dövründə kommunist partiyası, iqtisadi siyasəti və iqtisadi inkişaf planlarını müəyyən etmiş və onların müvəfəqiyyətli şəkildə tətbiq edilməsinə nəzarət etmişdir. Kommunist partiyası sosializmin hər bir mərhələsində Azərbaycan SSRİ daxilində iqtisadi planlaşdırma təşkil edib həyata keçirmişdir. Bu məqsədlə Kommunist partiyası özünün şəxsi proqramını yaratmış və SSRİ daxilində iqtisadiyyatın bu proqrama əsasən idarə edilməsinə nəzarət etmişdir.

b)İqtisadi planlamanın elmi prinsipləri. Hər bir iqtisadi plan elmə əsaslanmalıdır bu o isə deməkdir ki, bütün iqtisadi planlar təbiəti və cəmiyyətin inkişafını müəyyənləşdirən obyektiv qanunlarala bərabər müasir elmin və texnolgiyanın nailiyyətlərinə və kəşflərinə əsaslanmalıdır. Planlaşdırma prosesinin ən vacib köməkçi elementəri komputer elmləridir, planların iqtisadi standartlara uyğun olmasına zəmin yaradır. Sovet hakimiyyəti dövründə iqtisadi planların yaradılmasında və tətbiqində SSRİ-nin elmi akademiyalarından qabaqcıl iqtisadçılar aktiv şəkildə iştirak etmişdir.

c) İqtisadi planların direktiv xüsusiyyətləri. İqtisadi planlar hansılar ki, milli

iqtisadiyyatın inkişafının müəyyən edir, bütün iqtisadi sferalarda “məcburi statusa” malikdir, yəni, onun ölkə daxilində tətbiqi icbaridir. Ölkə iqtisadi planı dövlət sərəncamının bir formasıdır və qanun qüvvəsinə malikdir buna görədə mərkəzi və yerli hökumət orqanları müəyyən edilmiş iqtisadi planlara əməl etməlidir.

d) İqtisadi planlaşdırmada demokratik mərkəzləşdirmə. Milli iqtisadi planlaşdırma iqtisadiyyatda mərkəzləşdirilmiş nəzarət və idarənin mövcud olduğu bir iqtisadi sistemidir. Bu iqtisadiyyatı yerli hakimiyyət orqanları mərkəzdən aldıqları göstərişlər əsasında mövcud və uzunmüddətli planları həyata keçirirlər.

e) İqtisadi planlarla və onun tətbiq arasındakı uyğunluq. İqtisadi planların yaradılması və onun təsdiq edilməsi görülməli olan işlərin sona çatması demək deyil. İqtisadi planların plana uyğun tətbiq edilməsidə onun yaradılması qədər vacibdir. Buna görədə Azərbaycan SSRİ də iqtisadi planların müvəfəqiyyətlə həyata keçirilməsi üçün  xüsusi mexanizma yaratdı və bu mexanizma bütün SSRİ daxilindəki müəssisələri və onların işçilərini bu iqtisadi planlarını tətbiq etməyə sövq etdi. Bu mexanizmanın daxilində maddi və mənəvi stimullar xüsusi mükafatlar, iqtisadi cəhətdən sərfəli qiymətlər, artan gəlir və təcrübə və bacarıqların bölüşdürülməsi daxildir.

Aşağıdakılar iqtisadi planlaşdırmanın əsas məqsədləridir:

-Sosialist iqtisadi sisteminin maksimum şəkildə gücləndirilməsi və inkişafı.

-Cəmiyyətin artan tələbinin, artan həyat səviyyəsinin tam şəkildə təmin edilməsi.

-Texnoloji inkişafa və sərfəli istehsalata əsaslanan iqtisadi inkişafı artırılması və qorunması.

Sosialist iqtisadi inkişafının əsas məqsədi cəmiyyətin gələcək inkişafını təmin edəcək material və texniki baza yaratmaqdır. Bu isə aşağıdakıları tələb edir

- İqtisadiyyatın tam şəkildə elektrikləşdirilməsi və dahada inkişaf etdirilməsi.
- İstehsalat prosesinin avtomatlaşdırılması.
- İstehsalatın Yeni effektiv qollarının yaradılması və inkişaf etdirilməsi.
- Təbii və insan resurslanın effektiv şəkildə istifadə edilməsi.
- Elmin və istehsalatın yüksək səviyyədə inteqrasiyası.

- İşçi qüvvəsinin mədəni və texniki bacarıqlarının inkişaf etməsi.

Planlaşdırmanın metodologiyası.

Sosialist cəmiyyətində fəaliyyət göstərən sosial iqtisadi qanunların tətbiqi və onlar haqqında bilik milli planlaşdırma sisteminin əsasını təşkil edir. Bu qanunlar haqqında biliklərdən onların müvəfəqiyyətlə planlaşdırma prosesindəki nəzəriyyədən tətbiqə keçməsi vəya iqtisadi inkişafın nəzəriyyədən praktikaya keçməsində elmi metodologiyanın və planlaşdırma metodlarının rolu böyükdür. Bundan əlavə planlaşdırma prosesinin özüdə sosializmin iqtisadi qanunları haqqında biliyə tövhə verir. Bu planlaşdırma metodologiyasının elmi səviyyəsi, bu qanunların yüksək səviyyədə və düzgün şəkildə bilinmə və planlaşdırma prosesinin obyektiv şəkildə həyata keçməsinə şərait yaradır. Planlaşdırmanın metodologiyası qısa şəkildə iqtisadiyyatın ümumi prinsiplər və metodlar vasitəsilə idarə edilməsi kimi göstərilə bilər. Planlaşdırma metodlarının ən əsas hissəsini ekonometrik hesablamalar vasitəsi ilə iqtisadi hədəflərin aydınlaşdırılması və əldə edilmiş nəticələrin analizi təşkil edir. Azərbaycan SSRİ-nin dövründəki dövlət tərəfindən həyata keçirilmiş iqtisadi inkişaf planlarının əsas məqsədi sosializm prinsplərinə əsaslanan yenidən reproduksiyadır(yenidən istehsalat). Buna görədə planlaşdırma metodlogiyası Azərbaycan SSRİ-nin  daxilində yenidən istehsalat haqqındakı Marksist nəzəriyyəsinə əsaslanır.  Sosialist cəmiyyətində reproduksiya istehsalatın əsas vasitələrinin ictimailəşdirilməsinə (yəni özəl mülklərin dövlət mülkiyyətinə keçməsi) və istehsalatın dövlət tərəfindən qəbul edilmiş iqtisadi planlara uyğun davam etdirilməsinə əsaslanır. Yenidən istehsalatın geniş vüsət almasında və planlaşdırılmasında əsas məqsəd istehsalatın müxtəlif qolları və bütün iqtisadi sektorlar arasında əlaqə yaratmaqdır. Burada məqsəd müəssisələrlə istehsalat arasında əlaqə yaratmaq və istehsalatın iqtisadi planlara uyğun davam etdirilməsidir (Əli Nuriyev, “Davamlı və tarazlı regional inkişaf”).

Ofis işçiləri və kollektiv fermerlər dövlət və korporativ ticarət planları tərəfindən idarə edilir. İşçilərin əmək haqları istehlak məhsulları ilə dəyişdirilməsi isə bu iqtisadi qanunların əsas məğzini təşkil edir. İstehsalatın inkişafını təmin etmək, infrastrukturu və xidmət sənayesini inkişaf etdirmək məqsədi ilə maliyyə

planlarının yaradılması və paylanmasıda bu iqtisadi sistemin əsasını təşkil edir.

Milli iqtisadi planlaşdırma sadəcə material istehsalatı əhatə etmir. Bu planlaşdırma bütün sosial, mədəni və firavanlıq xidmətlərini də, bacarıqlı işçi heyətinin təlimi, əhalinin paylanması, şəhər planlaşdırma, yaşam şəraitinin inkişafı, bələdiyyə xidmətlərinin təmin edilməsi, elmi və mədəni səviyyənin ön plana çıxarılması və işçi qüvvəsinin texniki bacarıqlarının artırılması kimi sahələri əhatə edir.

Planların detallı şəkildə hazırlanmasında əsas məqsəd mövcud olan vəziyyətin resusrların, real tələblərin və mümkün ola biləcək nəticələrin elmi cəhətdən dəyərləndirilməsidir. Buna misal olaraq istehsalatın və maliyyə tələblərinin normalarının elmə əsaslanaraq komputerləşdirilməsi, istehsalat və lazımi tələblərin müəyyən edilməsi ilə birgə buna uyğun iqtisadi planların yaradılmasında da böyük rol oynayır. Hər hansı bir məhsula və xidmətə olan tələbi komputer sistemi vasitəsi ilə müəyyən edir və həmin istehsalata lazım olan resursların növünü aydınlaşdırır. İqtisadi planı sosializmin əsas iqtisadi qanunlarının fəaliyyəti və milli iqtisadiyyatın balanslı inkişafı haqqındaki qanunu ilə əlaqələndirilməsi üçün bu iqtisadi plandakı göstəricilər mövcud olan resurslara əsaslanmalıdır. Bu o deməkdir ki, istehsalatın müxtəlif qolların inkişaf etdirilməsi, insan resusrlarını, əhali paylanmasını və gəlirlərin bölüşdürülməsini, nəzərə almalıdır. Material, maliyyə və əmək arasında harmoniya yaratmadan iqtisadi planın müxtəlif bölmələrini bir biri ilə əlaqələndirmək və inteqrasiya etmək mümkün deyil.

Məhsuldar qüvvələrin paylanmasının strategiyası.

Sovet Azərbaycanı hakimiyyəti daxilində məhsuldar qüvvələrin paylanmasının planlaşdırılması xüsusi əhəmiyyət kəsb edirdi. İstehsalatın məntiqə uyğun şəkildə paylanması iqtisadi inkişaf və həyat səviyyəsinin artım tempinə bir başa təsir edir. Məhsuldar qüvvələrin planlaşdırılması eyni zamanda təbii resurslarının effektiv şəkildə istifadə edilməsinədə şərait yaradır.

Aşağıdakı prinsiplərə əsasən məhsuldar qüvvələr Azərbaycan SSRİ daxilində bu şəkildə paylanmışdır:

a)İstehsalatı xammal materiallarının, yanacağın, enerji və əmək qüvvələrinin çox olduğu yerdə davam etdirir və həmin istehsalatın nəticəsində istehsal edilmiş məhsulların istehlakçılara minimum xərclə çatdırılması təmin edilirdi.

b) İxtisaslaşma iqtisadi sahələrin geniş miqyaslı inkişafı və təbii, insan və material resusrların yüksək effektiv şəkildə istifadəsi əsas qaydalardandır. Bu qaydalar Azərbaycan SSRİ-dəki milli iqtisadiyyatın bütün sahələrini əhatə edirdi ancaq iqtisadiyyatın müxtəlif sahələrində geniş tətbiq edilirdi.

Ümumi olaraq əsas prioritet insan resurslarının mövcudluğu, xammal məlumatlarının qiyməti, enerji yanacaq ilə birgə su resurslarının mövcudluğu və daşınma xərcləri Azərbaycan SSRİ–nin daxilində planlaşdırma prosesinin əsas meyarları idi. Bu göstəricilərin analizi nəticəsində sənaye müəssələri Azərbaycan SSRİ-nin daxilindəki optimal mövqeyi müəyyən edilir və isvestisya qoyulurdu. İstehsaların planlaşdırılmasındakı digər bir məsələ Azərbaycan SSRİ-sinin regionlarının müxtəlif iqtisadi sahələr üzrə ixtisaslaşmasıdır. Planlaşdırmada əsas götürülən meyar müəssənin tikilməsi üçün müəyyən edilmiş respublikadakı mövcud xammal materiallarının yanacaq və enerji resurslarının və əmək qüvvəsinin səviyyəsi olmuşdur. Ümumilikdə isə istehsalatın xərcinin səviyyəsi və lazım olan maliyyə investisiyanın ölçüsü respublikaların müəyyən iqtisadi sahələr üzrə ixtisaslaşmasına və bu ixtisaslaşmaya uyğun istehsalat planlaşdırıılmasına istiqamət vermişdir. Buna misal olaraq yanacağa olan ehtiyacın yüksək olduğu sənaye müəssələri yanacaq resusrlarının çox və keyfiyyətli olduğu ərazilərdə yerləşdirilməsi və bunun vasitəsilə istehsalat xərclərinin azaldılması Azərbaycan SSRİ-nin ən əsas iqtisadi planlaşdırma xüsusiyyətlərindən biri olmuşdur. Digər tərəfdən sənayə müəssələri var ki, maddi yönümlü məhsullar istehsal edir, xammal məhsullarının və tələbatın çox olduğu ərazilərdə yerləşdirilmişdir. Burada məqsəd daşınma xərcini azaltmaq və ümumilikdə istehsalat xərcinidə minimuma endirmək olmuşdur.

Bundan əlavə bahalı xammal məmulatları tələb edən sənaye sahələri isə istehlakın yüksək olduğu ərazilərdə fəaliyyət göstərmiş və bazarı bahalı tekstil və geyim məhsulları ilə tələb etmişdir.

Kənd təsərrüfatı sahəsindəki ixtisaslaşmada bir neçə faktora əsasən aparılmışdır. Torpaq və iqlim şəraitinin kənd təsərrüfatı üçün müvafiq olduğu ərazilərdə istehsalat həyata keçirilmişdir.

Sənaye və kənd təsərüffatı bir birilə yaxından əlaqəlidir. Ağır sənayenin inkişafı o ərazilərdə mümkün olur ki, orada kartof və tərəvəz yetişdirən fermalar və südlük məhsulların istehsalı ilə məşğul olan zonalar mövcuddur. Bununla belə qida və yüngül sənaye müəssələrinin yerləri isə kənd təsərüfatı istehsalatının yüksək olduğu ərazilərdə yerləşməsidir. Azərbaycan SSRİ-nin daxilindəki ixitisaslaşma iqtisadi inkişaflada əlaqələnmişdir. İxtisaslaşmanın əsas məqsədi həm SSRİ həmdə Azərbaycan SSRİ-nin daxilindəki tələbatı təmin etmək və mövcud iqtisadi inkişafı dəstəkləməkdir. SSRİ daxilində istehsalat qüvvələrinin paylanması iqtisadi sahələr üzrə ixtisaslaşmaya əsaslanmışdır. İqtisadi sahələr respublikaların ixtisaslaşdığı sahələrə uyğun müəyyən edilmişdir. Burada ən vacib kriteryalar əmək qüvvəsinin stabil iqtisadi əlaqələrin və resursların mövcudluğu olmuşdur. iqtisadiyyatın sənaye qollarının inkişafı üçün planlarda əsas diqqət istehsalatla istehlak arasındakı balansın hesablanmasına və iqtisadi zonalarda bu balansın mövcudluğuna əsaslanmışdır. Hesablamalarda əsas diqqət minaral gübrələrin, neftin, kömürün, qazın, oduncağın, kənd təsərüffatı məhsullarının əsas növlərinin və istelahlakçı məhsullarının sayına yönəlmişdir. Bu hesablamalar iqtisadi zonaların seçilmiş əmtəəni daxili bazarda istənilən səviyyədə və keyfiyyətdə təmin etmə potensialını aydınlaşdışmış və eksport imkanlarını üzə çıxarmışdır. Hər bir məhsul üçün hesablamalar ayrı şəkildə aşağıdakı model sxemaya uyğun həyata keçirilmişdir:

1) Resurslar, istehsalat, digər bölgələrdən gələn importlar və ümumi resurslar.

2) İstehlak, sənaye, tikinti, nəqliyyat, kənd təsərrüfatı, kommunal iqtisadiyyat və digər istehsalçılar, digər ərazilərə olan eksportlar.

Hər bir iqtisadi zonanın enerji və yanacaq balansları daha detallı sxema əsasında yaradılmışdır.

İqtisadi zonaların inkişafı planına daxil olan ən əsas hədəf yeni sənaye mərkəzlərinin tikilməsi və inkişafı, onların xammala olan tələbatının təmin

edilməsi olmuşdur. Bu isə “müxtəlif ərazilərdə yerləşən sənaye komplekslərinin” inteqrasiyası adlandırılmışdır.

Əhali paylanması siyasəti.

Azərbaycan SSRİ-nin daxilindəki Əhali paylamasının siyasətinin əsasını şəhər və kənd yaşayış məntəqələri arasında effektiv əlaqələrin formalaşdırılması və inkişafı olmuşdur. Bu isə məhsuldar qüvvələrin inkişafı və paylanması planlarına uyğun həyata keçirilmişdir. Əsas məqsəd isə regional və şəhər planlaşdırmasını təmin etmək olmuşdur. Azərbaycan SSRİ-nin də məskunlaşma şəbəkəsinin inkişafı sistematik şəkildə sosializmin iqtisadi qanunlarına uyğun həyata keçirilmişdir. SSRİ-dən əvvəlki mövcud şəbəkə şəhərlə kənd əhalisinin bir birindən ayrı yaşaması, ayrı fəaliyyət göstərməsinə və nəticədə əhalinin qeyri müntəzəm paylanmasına səbəb olmuşdur.

Əhali paylanması siyasəti və yaşayış məntəqələri arasındakı əlaqələrin inkişafını təmin etmək üçün aşağıdakı məsələlər vacibdir:

a)Şəhərlərin və yaşayış məntəqələrinin şərq və qərb hissələrində balanslı şəkildə əhalinin paylanmağını təmin etmək;

b)Mövcud olan böyük şəhərlərin geniş miqyaslı inkişafını limitləmək və yeni geniş şəhərlərin yaranmasını və inkişafını təmin etmək;

c)Kiçik və orta miqyaslı şəhərlərin intensiv inkişafını sənaye və digər istehsalat sahələri vasitəsilə təmin etmək;

d) Ucqar kənd ərazilərinin şəhər yaşayış məntəqələri ilə inteqrasiyasını yaratmaq.

Yeni yaşayış məntəqəsi sistemlərinin yaradılması aşağıdakı prinsipləri vardır:

a) Bölgələrdəki sənaye komplekslərinin müvəfəqiyyətlə inkişafı və sənaye cəhətdən inkişaf etmiş regionlarda onların aqlomerasiyası;

b) Vahid nəqliyyat sisteminin təşkili, iqtisadi və ictimai infrastrukturların yaradılması, şəhər və şəhər ətrafı ərazilərdə yeni yaşayış məntəqələrinin yaradılması:

c) Ekologiyanın qorunması və inkişafının təmin edəcək tədbirlərin görünməsini və geniş miqyaslı torpaqdan istifadə planlarının yaradılması;

d) Bu sistemə daxil olan yaşayış məntəqələri bir birini istehsalat, elm və mədəniyyət cəhətdən tamamlamalıdır. Bu məqsədlə nəqliyyat sisteminin inkişafı, komminikasiya sistemlərinin yaradılması, şəhər və kənd əhalisinin əqli və fiziki inkişaf üçün əlverişli şəraitin yaradılması ən əsas prioritetlərdir. Bu kimi tədbirlər şəhər və kənd ərazilərindəki yaşayış səviyyəsindəki fərqi aradan qaldıracaq və hər iki ərazinin davamlı inkişafını təmin edəcəkdir.

# II Fəsil İDARƏETMƏ OBYEKTLƏRİNİN MÜXTƏLİF SƏVİYYƏLƏRİNDƏ DAYANIQLI İNNOVATİV İNKİŞAFIN LAYİHƏLƏNDİRİLMƏSİ

## 2.1. Dayanıqlı inkişafının layihələndirilməsi metodlarının təhlili

Davamlı inkişaf nədir? Əvvəla bu sualın cavabı tapılmalıdır. Bütün sistemlər və cəmiyyət təbii şəkildə inkişaf edir. Ancaq bu gün ki, gündə və eramızda inkişaf öz dinamikası vasitəsilə nisbətən daha surətli inkişaf edir. Bunun əsas səbəblərindən biridə texnologiyadakı inkişafdır. Ancaq əsas problərdən biri isə balanslı olmayan, tarazlaşdırılmamış inkişafın gətirdiyi mənfi təsirləri heç kimin nəzərə almamasıdır. Bunun da əsas səbəblərindən biri isə inkişaf edən sistemin insanların həyatının xoşbəxtliyinə, təbiətə, ekologiyaya vurduğu zərərlərin nəzərə alınmaması ilə bağlıdır.

Əsasən insanlar öz düşüncə tərzlərini, yəni qeyri balanslı inkişaf edən iqtisadiyyat barəsindəki fikirlərini dəyişdikləri zaman onlar hal-hazırda davam edən inkişafın insanların həyatına və təbiətə vurduğu mənfi təsirləri aydın şəkildə başa düşəcəklər. Bununla belə davamlı iqtisadi inkişaf məqsədlərinə insanlar necə kömək edə bilərlər ki və cəmiyyət olaraq davamlı iqtisadi inkişafa necə nail ola bilərik?

Ümumiyyətlə davamlı inkişaf nədir?

Davamlı iqtisadi inkişaf mövcud olan resursları inkişaf etmək üçün həyata keçən proyektlərin ekoloji baxımdan düzgün həyata keçirilməsidir. Bunun üçündə müəyyən istiqamətlər vardır. Həmin bu istiqamətlər bizdə öhdəlik yaradır ki, təbiət və ekoloji baxımdan düzgün fəaliyyət göstərək və düzgün şəkildə inkişaf edək, bununla belə keçmiş proyektlərin yaratdığı mənfi təsirləridə aradan qaldıraq. Bunu da aradan qaldırmağın yolları yaşıl materiallardan istifadə etməkdir. Yəni tikin sektorunda və başqa proyektlərdə bundan istifadə etmək. Yaşıl material dedikdə isə nəzərdə tutulan təbiətə və ekologiyaya az ziyan vuran, təbiət baxımından az ziyanlı infrastruktur və materiallardan istifadə etmək lazımdır. Hətta bununla belə ilk

növbədə elə proyektlər dizayn etmək lazımdır ki, onlar öz enerjilərini özləri istehsal edə bilsinlər və nəticədə təbiətə olan təzyiqi aradan qaldırsınlar, bunlara misal olaraq külək enerjisini vəya günəş enerjisini misal göstərmək olar.

2-ci növbədə məhz elə zavod vəya fabrik, ümumiyyətlə sənaye müəssələri tikmək lazımdır ki, avadanlıqlardan çıxan zəhərli hava yaşayış sahələrindən uzaq olsun və məhz ele qurğularla işləmək lazımdır ki, havaya zəhərli maddəni daha az buraxsın. Bununla belə ele materiallar istehsal edilib buraxılmalıdır ki, ondan daha sonrada istifadə oluna bilsin. Buna misal olaraq su butulkasını buna misal göstərə bilərik, həmin o su butulkası dövr edir və istifadə də qalır buna başqa misallarıda göstərmək olar və bunlardan istifadə etməklə təbiətdə olan mənfi təsirləri aradan qaldıra bilərik.

Digər tərəfdən davamlı iqtisadi inkişaf, mövcud olan kütlənin ehtiyaclarını qarşılamaq və bunu qarşıladığımız zaman isə gələcəkdəki kütlənin ehtiyaclarına təhdid ola biləcək təsirləri aradan qaldırmaqdır. Hal-hazırda mövcud olan resursları biz tam şəkildə istifadə edə bilmərik, səbəb isə gələcəyi nəzərə almaqdır. Məs. hər hansı bir torpaq sahəsindən davamlı şəkildə istifadə edib, onun münbitliyini korlaya bilmərik çünki, bizdən sonra gələcək nəsil olacaqdır. Biz bu şəkildə istifadə etməliyik ki, bizim ehtiyaclarımızı hal-hazırda qarşılasın, bununla belə gələcəkdəki nəsillərin həyat fəaliyyətinə, həyat səviyyəsinə mənfi təsir göstərməsin və gələcəkdəki nəsillər də bundan istifadə edə bilsinlər. Davamlı inkişafa başqa bir tərif verilsə, bu inkişaf hər kəsin həyatını, hər bir cəmiyyətin firavanlığını kütləvi şəkildə inkişaf etdirməkdir.

Dahada dəqiq deyilsə, əgər bir nümunə kimi hər hansı bir şirkəti araşdırdığımız zaman hər bir şirkətin qarşısında bir əsas məqsəd dayanır, yüksək mənfəət götürmək. Ancaq bundan əlavədə şirkətlərin inkişaf etdirilməsi əhəmiyyətli dərəcədə vacibdir. Yəni insanlara mükəmməl işlər təklif olunmalıdır, mükəmməl peşə verməlidir və mükəmməl şərait qurmalıdır ki, hər kəs öz qida tələblərini işləri vasitəsilə qarşılasın, onlar keyfiyyətli yaşam tərzi keçirsin, təhsil səviyyələrini vəya övladlarının təhsil səviyyəsini qarşılaya biləcək lazımi qədər pul əldə edə bilsinlər və hətta qazanılan pulun artıq qalması ilə özlərini dahada

inkişaf etdirə bilsinlər, nəticədə özlərinin həyat keyfiyyəti artsın, xarici təhlükələrdən uzaq, sağlam davamlı inkişaf olsun.

Davamlı inkişaf sırf təbiətdə olan hadisələrlə bağlı deyil, insanlarında həyat keyfiyyəti, düşüncə tərzidə inkişaf etdirilməlidir. Bu məqsədlə təbiəti qoruyaraq biz yeni innovativ texnologiyalar inkişaf etdirməliyik.

Brutlan komissiyasının 1987-ci ildə nəşr etdirdyi bir məqalə var və bunun adı isə "Bizim ortaq gələcəyimizdir". Həmin məqalədə davamlı iqtisadi inkişafa dair bir açıqlama verilmişdir. Açıqlamada deyilirdi:Davamlı iqtisadi inkişaf ona deyilir ki, bu bir inkişaf prosesidir, günümüzdəki insanların ehtiyaclarını ödəyir, lakin gələcəkdəki generasiyanın öz ehtiyaclarını qarşılama potensialına və bacarığına mənfi təsir etmir, belə olan halda bu inkişafa Davamlı İqtisadi İnkişaf deyilir.

Bir daha qeyd olunmalıdır ki, davamlı inkişaf sırf təbiətlə bağlı deyil, bu daha geniş bir konsepsiyadır. Bu ümumiyyətlə insanlarında ehtiyaclarının qarşılanmasını, fərqli cəmiyyətlərdə, fərqli qurumlarda mövcud olan insanların müxtəlif tələblərini düzgün şəkildə qarşılamaq, güclü və sağlam cəmiyyət yetişdirməklə bağlı bir konsepsiyadır. Hər kəsə bərabər bir şans verilən bir cəmiyyət yaratmaqla bağlı olan bir konsepsiyadır.

Davamlı inkişaf əsasən hansı istiqamətə yönəlir?

İnsanların həyat keyfiyyətini mənfi təsir göstərmədən, gündəlik rutin iqtisadi fəaliyyətləri davam etdirsin. Lakin deyildiyi kimi həm bir tərəfdən insanların keyfiyyətli həyatını aşağı salmadan həm də digər tərəfdən təbiətə mənfi təsir etmədən bu davam etdirilsin. Buna görədə bu inkişafın 3 əsas kompenenti vardır:

a) sosial daxiletmə;

b) iqtisadi inkişaf;

c) təbiət və təbiətin qorunmağı.

Hansı ölkələr ki, təbii resursların və onların qorumağın əhəmiyyətini anladıqları zaman, çalışırlar ki, təbiət baxımından bərpa edilə bilən resurslara yönəlsinlər və insanları da eyni şəkildə çalışırlar ki, bu tərz istifadə etməyə

başlayıb hər zamanda bu şəkildə davam etsinlər.

Bunundа nəticəsində insanların həyat və sağlamlığını inkişaf etdirsinlər. Ölkələr, iqtisadi inkişaf baxımından yüksək səviyyədədirlər, fermerlər daha çox iqlim cəhətdən daha münasib kənd təsərrüfatı ilə məşğul olurlar vəya tətbiq edirlər. Sənaye sahələrində isə enerjini daha qənaətlə istifadə edirlər.

-Bu ölkələrdə davamlı iqtisadi inkişaf yüksəkdir;

-İnsanlar bacardıqları qədər öz həyatlarını, sağlamlıqlarını inkişaf etdirirlər;

-Fermerlər kənd təsərrüfatı ilə o tərzdə məşğul olurlar ki, onlar daha səmərəli təsərrüfat sahələri ilə məşğul olur, iqlim cədvəllərinə uyğun olaraq hərəkət edirlər;

-Sənaye müəssələri isə elə fəaliyyət göstərirlər ki, ən yüksək səviyyədə enerji resurslarından qəaətlə istifadə edib həm ətraf mühiti korlamasınlar, həm də bərpa olunmayan resurslardan çox istifadə etməklə gələcək nəsil üçün böyük bir problem saxlamasınlar.

Davamlı iqtisadi inkişafı başa düşmək, onun məqsədlərinə nail olmağın birinci addımı ondan ibarətdir ki, biz buna nail ola bilmək üçün nə edə bilərik və bunu necə nəzərə ala bilərik?

Bununla bağlı bir neçə təkliflər günümüzdə mövcuddur. Ancaq hal-hazırda da davamlı iqtisadi inkişafla bağlı bir neçə problemlər, bir çox çətinliklər var ki, bunlar aradan qaldırılmalıdır.

Bununla belə davamlı iqtisadi inkişafın 3 əsas məqsədi vardır. 1-ci məqsəd təbii resurslardan istifadənin və tükənməsini minimuma endirmək. Buna nail olmağın yollarından biri yeni inkişaf proqramları həyata keçirmək, yəni neft resurslarından istifadəni azaltmaq və digər enerji resurslarından istifadə etməklə. Buna misal olaraq su ilə və ya elektrik ilə çalışa bilən maşınlarrın istehsalı birbaşa davamlı iqtisadi inkişaf məqsədinə nail olmaq üçün bir yoldur. 2-ci məqsəd isə məhz elə bir inkişafa nail olmaq lazımdır ki, təbiətə zərər verə biləcək faktorları aradan qaldıraraq inkişaf etmək, yəni təbii resursları istifadəni minimuma endirirək CO2 buraxan, günümüzdə ən çox istifadə olunan maşınları azaltmaq. Bununla belə su maşınları və ya elektriklə çalışan maşınlar üzərində

çalışaq, bu maşınlar təbiətə daha az zərər vurur. Bunun özü də bir inkişaf yoludur. Əgər biz benzinlə çalışan maşınların sayını azaltmasaq bu qlobal istiləşməyə müsbət təsir göstərəcək, buda özlüyündə yer kürəsində təmiz havanın azalmasına və insanlarda müxtəlif xəstəliklərin yaranmasına gətirib çıxaracaq. 3- cu məqsəd isə biz hal-hazırda mövcud proyektləri və obyektləri elə şəkildə inkişaf etdirməliyik ki, onlar öz istehsal proseslərində təbiətə az mənfi təsir göstərsin. Buna misal olaraq Gəncədə yerləşən Aliminium zavodu göstərə bilərik, təbiətə dəyən zərər həddindən artıq yüksəkdir. Biz isə çalışmalıyıq və bu sahədə inkişaf etdirməliyik ki, yeni texnologiyalardan daha doğrusu təbiətə az zərər vuran texxnologiyalardan istifadə olunsun.

BMT-nin və digər qeyri-hökümət təşkilatlarınıın, kömək təşkilatlarının və hökumətlərin əsasən diqqət yetirdiyi faktor ondan ibarətdir ki, hər bir sektorda geniş miqyaslı şəkildə bu sadalanmış 3 iqtisadi inkişaf məqsədlərinə nail olunsun. Digər köməkçi məqsədlər var ki, bunlar da aşağıdakılardır; 1-ci məqsəd dünyada ki, yoxsulluq səviyyəsini minimuma endirmək. Beynəlxalq təşkilatların üzərində durduğu əsas məsələ inkişafda olan və inkişafdan geri qalan, bunlarda kasıblıq səviyyəsi yuxarı olur, bunları aradan qaldırmaqdır. Əsas məqsəd isə ondan ibarətdir ki, onlara sosial müdafiə proqramları həyata keçirmək. Buna misal olaraq:

-Yoxsul təbəqənin məktəblərdə fəaliyyətini artırmaq, onlara maliyyə yardımı həyata keçirmək və yaxud qida ilə bağlı kömək göstərmək.

-Bununla belə sosial sığortalardan və icbari sığortalardan bu əhalinin faydalanmasına kömək etmək, əmək bazarında proqramlar həyata keçirmək, onlara təlimlər keçməklə öz bacarıq və biliklərini artıracaqdır.

-Yaşlı əhaliyə qiymətlərə uyğun pensiya təminatı vermək, maaş köməklikləri göstərmək, artırmaq. İşsizlik sığortasının təmin edilməsi və yaxud da bacarığı olmayan , əmək qabiliyyəti olmayan şəxslərə pensiya, müavinatların verilməsi kimi faktorlar vasitəsi ilə insanların yoxsulluq səviyyəsini aşağı salınması.

2-ci məqsəd insanların sağlamlığını və hər bir səviyyədə firavanlığını artırmaq davamlı inkişafın ən mühüm məqsədlərindən biridir. Burada əsas məqsəd

kiçik yaşlı uşaqların sağlamlığını, ana bətnindəki sağlamlığını, infeksion xəstəliklərin qarşısının alınmağından ibarətdir.

Eyni zamanda burada sağlamlığı maliyyələşdirmək ilə bağlı məqsəd də mövcuddur. Həmçinin sağlamlığın inkişafı üçün araşdırma və inkişaf mərkəzləri də vardır. Bu mərkəzlərə maddi baxımdan maliyyə yardımı verilir və resurslarla təmin olunur. Bunlara maddi yardım ayırmaqla onların yeni dərman növlərini tapmağa daha ucuz və daha sərfəli yolla dərman preparatı hazırlanıb əhaliyə aşağı qiymətə verilməsinə nail olunur.

Hər bir ölkənin öz bacarıq qabiliyyəti vardır, sağlamlıqla bağlı risklərin aradan qaldırılması bacarığı onların idarə edilmə bacarığını gücləndirmək kimi bir funksiyası vardır və bu funksiyanın daha da gücləndirilməsinə yardımçı olmaq davamlı iqtisadi inkişafın məqsədlərindən sayılır.

3-cü məqsəd isə keyfiyyətli təhsil verməkdən ibarətdir. Uşaqlara məktəbə getmə dövründən belə bir araşdırma edilib ki, keyfiyyətli təhsil mövcud olmur, xüsusilə İEOÖ də bu daha qabarıq görsənir. Bu boşluq aradan qaldırılmalıdır ki, gələcəkdə davamlı inkişafı təmin edə bilsinlər. Yüksək keyfiyyətə, yüksək bacarığa və biliyə sahib olan gəncliyin yetişdirilməsi buna təkan verir ki, inkişafı surətləndirən innovasiyalar və texnologiyalar inkişaf etsin. Burada əsas məqsəd insanları, uşaqları cəmiyyətdən uzaqlaşdırmayan bir sistem qurmaqdır. Buna misal olaraq demək olar ki, etnik qruplara və az təminatlı insanlara təhsil verilməsini əngəlləyən hər bir ünsürə qarşı gəlmək, hər bir insanı içərisinə alan, hər kəsin bərabər hüquqlu olduğu bir sistem qurmaqdan ibarətdir.

4- cü məqsəd təmiz su və sanitariyanın inkişafıdır. Davamlı inkişafın əsas, yəni yüksək mərhələsində duran faktorlardan biri su və sanitariyadır. Ümumiyyətlə antisanitariya mövcud olduğu bir cəmiyyətdə insanların sağlamlığından, yaşamağından, və özlərini xilas etməyindən söz belə gedə bilməz. Burada əsas məqsəd içki suyu və məişətdə istifadə etdikləri suyun təmiz olmasını təmin etməkdir ki, insanlar sağlam həyat fəaliyyəti yüksək olsun.

5-ci məqsəd güclü infrastruktur yaratmaqdır. Buna həm sənaye baxımından, həm də innovasiya baxımından güclü infrastruktur yaratmağın vacibliyi göstərilir.

Sənayeləşmə, infrastruktur və innovasiya bu məqsədin 3 əsas qoludur. İnfrastruktur dediyimiz zaman müəssələrin və cəmiyyətin maneəsiz fəaliyyətinin təmin edə biləcək faktorlardan gedir. Məs. fabriklərin, cihazların , avadanlıqların olmağı təbiətə az təsir göstərəcək. Sənayeləşmə isə odur ki, iqtisadi cəhətdən inkişaf, sənayeyə əsaslanan iqtisadiyyatdır. Yəni yeni iş yerlərinin yaradılması bu yoxsulluğa, kasıbçılığada bir başa təsir göstərir.

İnnovasiya dedikdə isə texnoloji qabiliyyətin yəni sənaye sektorlarındakı texnoloji qabiliyyətlərin inkişafını və insanların bu texnoloji inkişaflara adaptasiyasını təmin etməkdir.

